# Səyyar qəbullar





Vəndam qəsəbəsi.



Tövlə kəndi.

Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşadığı dövrdə çox çətinliklərlə qarşılaşır. Bəzən elə problemlərlə qarşılaşır ki, onların həlli tək özünün mübarizəsi ilə hasilə yetmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.



Tüntül kəndi.

Bu ilin mart ayında səyyar qəbullar Vəndam qəsəbəsində, Tövlə və Tüntül kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyatı üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

**"Qəbələ".**

### QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2025-ci İLİN APREL AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Yenikənd kəndi | 03.04.2025 | Kənd məktəbi, saat $15^{00}$ |
| Topbağ kəndi | 10.04.2025 | Kənd məktəbi, saat $15^{00}$ |
| Böyük Əmili kəndi | 17.04.2025 | Kənd məktəbi, saat $15^{00}$ |
| Mirzəbəyli kəndi | 24.04.2025 | Kənd məktəbi, saat $15^{00}$ |

# Vətəndaş qəbulu



Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə vətəndaşların qəbulu keçirilib. Qəbulda Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin, eləcə də digər vətəndaşların müraciətləri dinlənilmişdir. Onların irəli sürdükləri təkliflərin, qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideyinləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

# Novruz - Milli birlik bayramı



Qəbələ rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Novruz bayramı münasibətilə "Novruz - Milli birlik bayramı" adlı tədbir keçirilib. Tədbirdə Mədəniyyət Mərkəzinin, Dövlət Rəsm Qalereyasının, Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin, Tarix-Diyarşünaslıq Muzeyinin, GİKM-in Qəbələ bölməsinin, MKS-nin şəhər 2 saylı filialının, Qəbələ UADM-ın əməkdaşları, Qəbələ Jalə Uşaq Bağçasının müəllim və körpə fidanları, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin müəllim və tələbələri, Uşaq İncəsənət Məktəbinin şagirdləri iştirak edib.

Çıxışlarda xalqımızın qədim tarixini əks etdirən, milli adət və ənənələrimizi özündə birləşdirən Novruz bayramının tarixindən söz açılıb, ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə Novruz bayramının dövlət səviyyəsində qeyd edilməsinin tarixi köklərə qayıdışın parlaq nümunəsi olduğu diqqətə çatdırılıb.

Çıxışlardan sonra tətbiqi incəsənətin bir növü olan bədii tikmə ustası Cəlilova Şəfəq Nazim qızının əl işlərindən ibarət sərgiyə baxış keçirilib, videoçarx nümayiş olunub, şagirdlərin ifasında Novruza, yazın gəlişinə həsr olunan mahnılar səsləndirilib, milli rəqslər təqdim olunub.

# İdman sağlamlıqdır

Bu günlərdə "Qəbələ - İdman Paytaxtı 2025" layihəsi çərçivəsində Bədən Tərbiyəsi və İdman Günü ilə əlaqədar təntənəli idman tədbiri keçirilib. Öncə tədbir iştirakçıları tərəfindən Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilmiş, önünə gül dəstələri düzülmüş və



Qəbələ Mədəniyyət Mərkəzində Ümummilli Lider Heydər Əliyevin Azərbaycan idman ictimaiyyəti ilə tarixi görüşünün 30-cu ildönümü ilə əlaqədar hazırlanmış "Dönüş Anı" adlı sənədli film nümayiş etdirilmişdir. Daha sonra Gənclər və İdman Nazirliyinin, idman federasiyalarının nümayəndələrinin, Olimpiya və Paralimpiya çempionlarının və mükafatçılarının, idman səfirlərinin, könüllülərin, Milli Antidopinq Agentliyinin rəsmi şəxslərinin, Azərbaycan İdman Akademiyasının tələbələrinin və rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə idman yürüşü keçirilmişdir.

Tədbirin rəsmi hissəsi Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başlamışdır. Tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev Ümummilli Lider Heydər Əliyev tərəfindən başlanılan gənclər strategiyasının bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən çox böyük uğurla davam etdirildiyini, Qəbələnin bu gün beynəlxalq miqyaslı tədbirlərə - dövlət başçılarının iştirakı ilə keçirilən zirvə toplantılarına, görüşlərə, sammit və forumlara, beynəlxalq idman yarışlarına ev sahibliyi etdiyini diqqətə çatdıraraq, belə möhtəşəm bir layihədə Qəbələnin yer aldığına görə əlaqədar təşkilatlara təşəkkürünü bildirmiş və layihənin həyata keçirilməsində rayonumuza uğurlar arzulamışdır. Çıxış edən gənclər və idman naziri Fərid Qayıbov Azərbaycan Respublikasında Gənclər siyasətinin, gənclərə, idmana qayğının həmişə dövlətin diqqət mərkəzində saxlanıldığını qeyd edərək rayon sakinlərini, xüsusilə də idmançıları Qəbələnin İdman Paytaxtı seçilməsi münasibətilə bir daha səmimi qəlbdən təbrik etmişdir. Sonda konsert programında səslənən bir-birindən maraqlı musiqillər iştirakçılar tərəfindən böyük coşqu ilə qarşılanmışdır.




**Fotolar S. Umuyevindir.**